| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 08.02.2010 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 718 |
| **ADI** | Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 09-02-2010, Nəşr nömrəsi: 30), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 28-02-2010, Nəşr nömrəsi: 02, Maddə nömrəsi: 99) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 430.000.000<br>010.000.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 01.07.2011 |

**Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2009-cu il fevralın 10-da Əl-Küveyt şəhərində imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 232 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın yaradılması haqqında Saziş”in icrasını və ikitərəfli əlaqələrin genişləndirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:[1]

***Komissiyanın həmsədri***[2]

*Azərbaycan Respublikasının xarici işlər naziri*

***Komissiyanın üzvləri***

*Azərbaycan Respublikası maliyyə nazirinin müavini*
*Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini*
*Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini*
*Azərbaycan Respublikası energetika nazirinin müavini*
*Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini*
*Azərbaycan Respublikası təhsil nazirinin müavini*
*Azərbaycan Respublikası səhiyyə nazirinin müavini*
*Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini*[3]
*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini*
*Azərbaycan Respublikası Diaspora İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini*
*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini*
*Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri*
*Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini*
*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti*
*“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti*
*Azərbaycan Respublikasının Küveyt Dövlətində fövqəladə və səlahiyyətli səfiri.*

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Küveyt Dövləti tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 8 fevral 2010-cu il
718

-

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 13 sentyabr 2010-cu il tarixli **325** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 09, maddə 773**)
2. 8 fevral 2012-ci il tarixli **2022** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Azərbaycan” qəzeti, 12 fevral 2012-ci il, 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 130**)
3. 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**)
4. 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644)**
5. 21 noyabr 2014-cü il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1414)**
6. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )
7. 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Respublika” qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**)
8. 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**)
9. 23 iyul 2021-ci il tarixli **2803** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Xalq” qəzeti, 25 iyul 2021-ci il, 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 816**)
10. 31 may 2022-cı il tarixli **3292** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Xalq” qəzeti, 4 iyun 2022-ci il, 116, Azərbaycan**

**Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 5, maddə 533)**

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 13 sentyabr 2010-cu il tarixli **325** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 09, maddə 773**) **ilə** 1-ci bəndində "**Şahin Abdullayev**" sözləri "**Tural Rzayev**" sözləri ilə əvəz edilmişdir.

8 fevral 2012-ci il tarixli **2022** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 12 fevral 2012-ci il, 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 130**) ilə "**Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini**" sözləri "**Ədalət Vəliyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini** " sözləri ilə, "**Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini**" sözləri "**Qulu Novruzov - Azərbaycan Respublikası təhsil nazirinin müavini**" sözləri ilə və "**Aftandil Babayev - Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti sədrinin müavini** " sözləri "**Avtandil Babayev - Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini**" sözləri ilə əvəz edilmişdir.

10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**) ilə 1-ci hissəsində "**sənaye və energetika nazirinin müavini** " sözləri "**energetika nazirinin müavini**" sözləri ilə əvəz edilmişdir.

27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**) ilə 1-ci hissəsində "**Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini**" sözləri **"Sahil Babayev - Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye nazirinin müavini** " sözləri ilə əvəz edilmişdir.

21 noyabr 2014-cü il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 11, maddə 1414**) ilə 1-ci hissədə "**rabitə və informasiya texnologiyaları**" sözləri "**rabitə və yüksək texnologiyalar**" sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissəsində "**Qulu Novruzov**" sözləri "**Ceyhun Bayramov**" sözləri ilə, "**Qüdrət Qurbanov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi** " sözləri "**Ehtiram Rəhimov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası rəisinin müavini**" sözləri ilə, "**Akif Əlizadə**" sözləri "**İbrahim Quliyev**" sözləri ilə və "**Tural Rzayev**" sözləri "**Elxan Qəhrəmanov**" sözləri ilə əvəz edilmişdir.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində "**Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini** " və "**Ehtiram Rəhimov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası rəisinin müavini**" sözləri çıxarılmışdır.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində "**rabitə**" sözündən əvvəl "**nəqliyyat,** " sözü əlavə edilmişdir.

[2] 23 iyul 2021-ci il tarixli **2803** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 25 iyul 2021-ci il, 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 7, maddə 816**) ilə 1-ci hissə ilə təsdiq edilmiş Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

| | |
|---|---|
| | ~~**Komissiyanın həmsədri**~~ |
| ~~Elmar **Məmmədyarov**~~ | ~~– Azərbaycan Respublikasının xarici işlər naziri~~ |
| | ~~**Komissiyanın üzvləri:**~~ |
| ~~Azər **Bayramov**~~ | ~~– Azərbaycan Respublikası maliyyə nazirinin müavini~~ |
| ~~Sahil **Babayev**~~ | ~~– Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müavini~~ |
| ~~Tofiq **Rəfiyev**~~ | ~~– Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini~~ |
| ~~Natiq **Abbasov**~~ | ~~– Azərbaycan Respublikası energetika nazirinin müavini~~ |
| ~~Ədalət **Vəliyev**~~ | ~~– Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini~~ |
| ~~*Ceyhun **Bayramov***~~ | ~~– Azərbaycan Respublikası təhsil nazirinin müavini~~ |
| ~~Abbas **Vəlibəyov**~~ | ~~– Azərbaycan Respublikası səhiyyə nazirinin müavini~~ |
| ~~Elmir **Vəlizadə**~~ | ~~– Azərbaycan Respublikası *nəqliyyat,rabitə və yüksək texnologiyalar* nazirinin müavini~~ |
| ~~Səfər **Mehdiyev**~~ | ~~– Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini~~ |
| ~~Elşad **Nəsirov**~~ | ~~– Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti~~ |
| ~~Sabir **İlyasov**~~ | ~~– "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti~~ |
| ~~Avtandil **Babayev**~~ | ~~– Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini~~ |
| ~~*İbrahim **Quliyev***~~ | ~~– Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti~~ |
| ~~*Elxan **Qəhrəmanov***~~ | ~~– Azərbaycan Respublikasının Küveyt Dövlətindəkifövqəladə və səlahiyyətli səfiri~~ |

[3] 31 may 2022-cı il tarixli **3292** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 4 iyun 2022-ci il, 116, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 5, maddə 533**) ilə 1-ci hissəsində "**nəqliyyat, rabitə və yüksək texnologiyalar**" sözləri "**rəqəmsal inkişaf və nəqliyyat**" sözləri ilə əvəz edilmişdir.